## ХОДЖАЛИНСКИЙ ГЕНОЦИД В ПРОИЗВЕДЕНИЯХ АРМЯНСКИХ АВТОРОВ

***Гасымова Арифа Акиф кызы***

***Резюме***

В статье рассматривается лицо Чоджалы глазами людей мира и проводится серьезный анализ. Бло отмечено, что трагедия стала очередным шагом в пресловутой политике ненавистных армянских сил. К сожалению, в то иремя Эннанистан не получил должного ответа. Однака наше государство уже вернуло город Ходжалы и отомстило. Это положило конец азному отношению к Ходжалинской трагедии.

## KHODJALIN GENOCIDE IN THE WORKS OF ARMENIANS AUTHOR'S

***Gasimova Arifa Akif***

***Summary***

The article focused on the Khojaly tragedy through the eyes of the peoples of the world and made a serious analysis, It was noted that the t tragedy was a relative step in the policy of the hated Armenian forcesUnf. Ortunately, Armenia did not receive a proper response at that time, However, our state has already taken back the city of Khojaly and retaliated. This put an end to the different attitude to the Khojaly tragedy

***Rəyçi: dos. H.Ə. Bəxtiyarlı, t.ü.f.d. G.M.Mustsfayeva***
***Ümumi tarix kafedrasının 27 fevral 2021 tarixli iclasın 06 saylı***
***Daxil olma tarixi 03 mart 2021-ci il***

**UOT:94.**

## TÜRK SİLAHLI QÜVVƏLƏRİNİN ƏFQANISTANDA SÜLHMƏRAMLI FƏALİYYƏTİNİN QISA XÜLASƏSİ

***Vəliyev Fərid Sübhan oğlu***
***Gəncə Dövlət Universitetinin doktorantı***
***farid valiyev caravanu@gmail.com***

**Xülasə:** *Bildiyimiz kimi 2001-cü ildən NATO Əfqanıstanda sülhməramlı missiya həyata keçirir. Missiyada bir çox ölkələr iştirak edirlər, Türkiyədə onlardan biridir. Türk Silahlı Qüvvələrinin (TSQ) əsas missiyası Əfqanıstan ərazisində əfqan əhalinin, o cümlədən müəyyən edilmiş ərazilərin, dövlət binalarının, aerodromların tam təhlükəsziliyini qorumaqdan ibarətdir. TSQ-i Əfqanıstandakı missiyasından əlavə olaraq, yerli əhali üçün humanitar yardımların çatdırılması, yerli polis qüvvələrinə təlimlərin verilməsi, dövlət binalarının, xəstəxanaların, aerodromların qorunmasında yaxından iştirak edirlər. Qeyd etmək lazımdir ki, yerli əhalı ilə TSQ-i arasında çox isti münasibətlər yaranmışdır, belə ki, yeli əhalinin problemlərinin anlayışla qəbul edib, onlara əllərindən gələn köməyi əsirgəməmək də, TSQ-nin demək olar ki, əsas devizlərindən biri olub.*

**Açar sözlər:** NATO, Türkiyə, Əfqanıstan, ISAF, Sülhməramlı missiya
**Key words:** Turkey, NATO, ISAF, Peacekeeping mission, Afghanistan
**Ключевые слова:** Турецкие Вооруженные Силы, Афганистан, Миротворческая миссия

**Araşdırma**

2001-cı il Sentyabrın 11 hadisələrindən sonra NATO ABŞ-nın dəstəyi ilə Əfqanıstan ərazısınə Əl-Qaidə ilə mübarizə üçün qoşun yeüritmək qərarına gəldi. Türkiyə 1 noyabr 2001-ci il tarixində hökumətin iclasında Əfqanıstana xüsusi təyinatlı dəstə göndərilməsi haqqında qərar qəbul edib. Bundan əvvəl Türkiyə parlamenti konstitusiyaya uyğun olaraq Türkiyə hökumətinə bu barədə qərar qəbul etmək səlahiyyətlərini verib. Hökumətin qərarında xüsusi

qeyd edilib ki, Türk komandolarının Əfqanıstana göndərilməsi haqqında qərar BMT Təhlükəsizlik Şurasının 1378 və 1373 nömrəli qətnamələri çərçivəsində və NATO qarşısında müttəfiq öhdəliklərinə uyğun olaraq qəbul edilib. Beləliklə, "Taliban" hərəkatı rejimi devrildikdən sonra 2001-ci ilin sonunda Türkiyə BMT-nin Əfqanıstandakı Beynəlxaql Təhlükəsizliyə Yardım Qüvvələrinin (ISAF) 37 iştirakçı ölkəsindən birinə çevrilmişdir. (1, səh., 221)

Göründüyü kimi Türkiyə həmişə olduğu kimi, yenədə özünün Silahlı Qüvvələrini dünyanın gərgin nöqtələrinə sülhü qorumaq üçün yollamışdır.

2001-ci ilin yanvarında Bonn razılaşmasına və BMT Təhlükəsizlik Şurasının 20 dekabr 2001-ci il və 1386-cı il tarixli qətnaməsinə uyğun olaraq təhlükəsizlik sahəsində Beynəlxalq Yardım Qüvvələri (BYQ-İSAF) formalaşdırılaraq Böyük Britaniyanın rəhbərliyi altında 16 yanvar 2002-ci il tarixdə fəaliyyətə başlamışdır. İSAF əməliyyatına görə məsuliyyət zonası əvvəlcə yalnız Əfqanıstan paytaxtı Kabil və onun ətrafları ilə məhdudlaşdığı halda, 18 oktyabr 2003-cü il tarixli 1510-cu il tarixli BMT Təhlükəsizlik Şurasının qətnaməsinə uyğun olaraq bütün Əfqanıstanı əhatə etmək üçün genişləndirilmişdir. Türkiyənin İSAF əməliyyatına fəal töhfə vermiş ölkələrdən biri kimi, Türkiyə fevral ayının 2002-ci ilin iyun ayından, 2003-cü ilin fevral ayına qədər 1300 hərbiçi ilə 380-ə qədər müxtəlif töhfə vermiş və İSAF-II dövrünə uğurla rəhbərlik etmiş. Türkiyə İSAF-VII dövründə 3-cü korpusa komandanlıq etmiş, 2005-ci ilin fevral ayından avqust ayınadək 30 ölkənin birləşmiş qoşunlarının rəhbərliyini həyata keçirmiş, TSQ-nin 1450 nəfərlik heyəti də daxil olmaqla 8000 nəfərlik birləşmiş NATO qoşununa rəhbərlik etmişdir. TSQ eyni zamanda, həmən dövrdə Kabil Beynəlxalq Aerodromunun rəhbərliyini də həyata keçirmişdir. (2)



Şəkil 1. Təhvil təslim mərasimi. (8. səh: 95)

2005-ci ilin fevral ayında General Etem Erdağı, Türkiyə, ISAF komandanlığını qəbul edir.(4) Türk qoşunlarına göstərilən bu böyük məsuliyyətin əsas səbəbi ondan ibarət idi ki, NATO rəhbərliyi tam şəkildə Türk Silahlı Qüvvələrinə güvənirdilər və başa düşürdülər ki, yerli əfqan əhali ilə türklərdən başqa heç bir NATO nümayəndəsi ümümi dil tapa bilməz.

Burda demək yerinə duşərdi ki, Türk Silahlı Qüvvələri digər NATO qoşunlarından fərqli olaraq, heç bir silahlı əməliyyatlarda iştirak etmir, yalnız sülhməramlı missiyanı yerinə yetirməklə məşğul olurdular.

Təsadüfi deyil ki, NATO Türkiyəyə xüsusi ümidlər bəsləyirdi. Türkiyənin Əfqanıstandakı uğurunun səbəblərindən biri əfqan polislərinin hazırlığı zamanı özünü göstərən linqvistik çeviklikdir. NATO-nun digər ölkələrindən olan mütəxəssislər ingilis dilini

bilməyən çoxlu sayda az təhsilli kursantlarla üzləşdilər. Türklər bu məsələni Əfqanıstanın müxtəlif millətlərdən olan sakinlərinin əsas dili olan dari dilində tədrisə keçməklə həll ediblər. Bundan başqa, Türkiyə əfqanıstan ordusu üçün kadr hazırlığı ilə də məşğul olub. 2009-2013-cü illərdə türklərə 17,5 min əsgər təlim keçib, onlardan 3,5 min nəfəri Türkiyənin özündə təlim keçib. 2004-cü ilin yanvarında Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətin NATO-nun Əfqanıstandakı ilk mülki nümayəndəsi təyin edilib. 2007 — ci ilin aprel-dekabr aylarında və 2009-cu ilin noyabr ayından 2013-cü ilin noyabr ayına qədər Türkiyə Paytaxt Regional Komandanlığının idarə edilməsinə cavabdeh idi. (5) TSK-nın Əfqanıstanda həyata keçirdiyi bir çox vəzifələrdən biri də Əfqanıstanın Milli Mudafiə və Təhlükəsizlik Qüvvələrinin ölkənin təhlükəsizliyini təkbaşına təmin edə biləcək vəziyyətə çata bilməsini təmin etməkdir. Bu məqsədlə Kabildə TSK-nın açdığı Gazi hərbi-tədris mərkəzində 2010-2011-ci illərdə Əfqanıstanın Milli Ordusunun zabitlərinin baza hazırlığı TSK tərəfindən həyata keçirilib. (3) Əlbəttə bütün bunlar əfqan xalqının gözündən yayına bilməzdi, məhz buna görə Əfqanıstanda türk əskərinə böyük rəğbət vardır, istər dövlət nümayəndəsi olsun, istər məmur, istər adi vətəndaş tərəfindən.

NATO-nun Türkiyəyə nə qədər dəyər verdiyini isə 2004-cü ildə İstanbulda keçirilən NATO-nun İstanbul Sammitindən görmək olar. Sammitdə Əfqanıstandakı ISAF qüvvələrinin fəaliyyətinin genişləndirilməsi barədə qərar qəbul edildi. Sammitin sonunda qəbul edilmiş qərarların 6-cı bəndində deyilir:

"Biz Əfqanıstan hökumətininin tərksilah, tərxisetmə və reinteqrasiya prosesini, o cümlədən hərbi bölmələrin Kabil və digər şəhər mərkəzlərindən çıxarılması prosesini qətiyyətlə davam etdirməyə çağırırıq. Biz narkotiklərin istehsalı və dövriyyəsi ilə mübarizə üzrə qəti tədbirlərin görülməsində Əfqanıstan hakimiyyətinə ISAF mandatı olmadan da lazımi dəstəyi göstərəcəyik."(6) TSQ isə göstərilən qərarın tam təhlükəsiz şəkildə həyata keçirilməsində birbaşa yardım göstərirdilər.

Türkiyənin Əfqanıstandakı bu hərəkata qoşulmağının əsas səbəblərdən biri kimi, Türkiyənin özünü Qərbin bir hissəsi kimi görməsidir. 1952-ci ildən NATO üzvü olan Türkiyə NATO-nun bütün sülhməramlı missiyalarında yaxından iştirak etmişdir.Bu səbəbdən də TSQ Əfqanıstanda İSAF tərkibində fəaliyyət göstərən yeganə NATO ölkəsidir. (7.səh.,61-62)

TSQ-i, Əfqanıstan silahlı qüvvələri üçün 1993-2007 illər ərzində TSQ-nin inventarından 7,1 milyon ABŞ dolları miqdarında yardım etmişlərdi. Onların əksəriyyəti silah, döyüş sursatı, radioqəbuledici, durbin, hərbi geyim və s. ibarət idi. TSQ-Tika (Türk Kalkınma ve İşbirliği Ajansı) əməkdaşlığı kontekstində Əfqanıstanın müasir hərbi liseyinin inşasına 8 milyon dollara yaxın vəsait xərclənmişdir. 2008-ci ilin mart ayına qədər TSQ-nın təqdim etdiyi yardımın miqdarı 52 milyon dollardan artıq olmuşdur. (8, səh.,102-103) TSQ-nin Əfqan Silahlı Qüvvələrinə etdikləri yardımlar onların qardaş əfqan xalqının çətin vəziyyətində uzadılmış bir yardım əli kimi qiymətləndirmək olar.

ABŞ, İtaliya və Almaniya kimi, Türkiyə də 2015-ci ildə Əfqanıstana dəstəyə davam etdirəcəklərini bəyan edən ölkələr arasında yer aldı. Türkiyə Silahlı Qüvvələri 1 yanvar 2015-ci il tarixinə NATO-nun yeni missiyası olan "Qətiyyətli Dəstək" missiyasında Əfqanıstanda hərbi qulluqçuların sayı 900-dən 1500-ə çatdıracağını söylədi. (9, səh.,7)

2015-ci ilin yanvar ayında BMT Təhlükəsizlik Şurasının 12 dekabr 2014-cü il tarixli 2189 nömrəli qətnaməsinə əsasən 1 yanvar 2015-ci ildən Əfqanıstanda yeni Qətiyyətli Dəstək Missiyası (RSM) başlamışdır. NATO-nun Brüssel zirvə toplantısında dövlət və hökumət başçıları 11-12 iyul 2018-ci il tarixlərində Əfqanıstanda uzunmüddətli təhlükəsizlik və sabitliyə sadiq olduqlarını bildirmiş, Qətiyyətli Dəstək Missiyasının Əfqanıstanın milli müdafiə və təhlükəsizlik qüvvələrinin təlim, köməkçi və məşvərət fəaliyyətini uğurla bərpa etdiyini bildirmiş və 2018-ci ildən sonra missiya çərçivəsində Əfqanıstana töhfələrini davam etdirəcəyini vəd etmişlər. 2019-cu ilin dekabr ayında Türkiyənin HHQ-nin kabul Həmid Kərzai beynəlxalq hava limanının (HKIA) istismarı üzrə missiyası NATO-nun (RSM)

Qətiyyətli Dəstək Missiyası çərçivəsində daha 2 il müddətinə uzadıldı və parlamentin Baş Assambleyası tərəfindən 25 dekabr 2018-ci il tarixli, və 1206-cı il nömrəli qərara əsasən uzadıldı. (10., səh., 275).

Hazırda Türkiyə Əfqanıstan rəhbərliyinə dəstək vermək, Əfqanıstanın milli müdafiəsini və təhlükəsizlik qüvvələrini öyrətmək və Əfqanıstan xalqına təhlükəsizlik, sabitlik və inkişaf sahəsində yardım göstərmək məqsədi ilə Əfqanıstanda yerləşir. Türkiyənin milli maraqları səbəbindən türk qoşunları məsuliyyət sahəsindən kənardadır və minalardan təmizləmə, terrorizmə qarşı mübarizə və narkotiklərlə mübarizədə iştirak etmir.(3)

**Nəticə**

TSQ-i Əfqanıstan ərazisində öz sülhməramlı missiyalarını həyata keçirməklə bərabər, eyni zamanda yerli əhali, silahlı quvvələr, polis və s. ilə nümunəvi münasibətlər qura bilmişlər. TSQ-i yerli hökumət orqanlarına da əllərindən gələn yardımı etmışlər. Sözsüz ki, bütün bunlar TSQ-nın cürbəcür qaynar nöqtələrdə apardıqları illərin təcrübəsi nəticəsində əmələ gəlmişdir. Bundan əlavə TSQ-i heç bir sülhməramlı missiyalarda silahlı toqquşmalarda iştirak etmir, əksinə ərazidə daha çox mühafizə və polis və ya hərbiçilərin təlimləri ilə məşğul olurlar. Son 20 ildə TSQ-də baş verən proseslər TSQ-nın surətlə inkişaf etdiyini və doğru yolda olduğunu göstərir.

***Ədəbiyyat***


1.“Турция в условиях новых внутренних и внешних реалий.” Сборник статей, Москва 2010, Учреждение Российской Академии Наук. Институт Востоковедения РАН, Институт Ближнего Востока.

2.http://www.rs.nato.int/

3.https://www.tsk.tr/Sayfalar?viewName=BarisiDestekleme

4.https://www.nato.int/cps/en/natohq/topics_8189.htm

5.https://eadaily.com/ru/news/2020/07/20/lider-islamskogo-mira-kak-turciya-vnedryaetsya-v-afganistan

6.https://archives.nato.int/uploads/r/null/1/4/145506/PRESS_RELEASE 2004_96_ENG.pdf

7.“Türkiyenin Barışı Destekleme Harekatlarına Katkısı” Gökhan Koçer. Uluslararası İlişkiler, cilt 3, sayı 11 (2006).

8. “Geçmişden Günümüze Türk-Afqan ilişkileri” Genelkurmay Basinevi. Ankara 2009.

9.“NATO Mudahilesi ve Sonrasında Afqanistan” Dicle Sasaoğlu. BİLGESAM Analiz/Orta Asya №1176 8 yanvar 2014.

10.“Kuruluşundan Günümüze Türk Hava Kuvvetleri” Cilt 3 Deniz Kurt, Yavuz Pehlivan, Erdal Korkmaz. Hava Kuvvetleri Komutanlığı, Ankara 2020


## A BRIEF SUMMARY OF THE PEACEKEEPING ACTIVITIES OF THE TURKISH ARMED FORCES IN AFGHANISTAN

***Valiyev Farid Subhan***

***Summary***

Along with carrying out its peacekeeping missions in the territory of Afghanistan, the TAF (Turkish armed Forces) also help the local population, the Armed Forces, the police, etc. they were able to establish exemplary relations with them. TAF could local government agencies have made their best assistance. Of course, all this is due to the experience of TAF in the other war places. In addition, TAF does not participate in armed clashes in any peacekeeping missions, but rather engage in more protection and training of police or military personnel in the area. The processes taking place in the TAF in the last 20 years show that the TAF is developing rapidly and is on the right track.

## КРАТКОЕ РЕЗЮМЕ МИРОТВОРЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ ТУРЕЦКИХ ВООРУЖЕННЫХ СИЛ В АФГАНИСТАНЕ

***Валиев Фарид Субхан оглы***

***Резюме***

Турецкие Вооруженные Силы (ТВС) наряду с выполнением собственных миротворческих миссий на территории Афганистана, а также с привлечением местного населения, вооруженных сил, полиции и т.д. с которыми они смогли установить образцовые отношения. ТВС также оказали посильную помощь местным органам власти. Само собой разумеется, что все это было сформировано в результате многолетнего опыта ТВС в различных горячих точках. Кроме того, ТВС не участвуют в вооруженных столкновениях в каких-либо миротворческих миссиях, а скорее занимаются охраной и обучением полиции или военных в этом районе. Процессы, происходящие в ТВС в течение последних 20 лет, показывают, что ТВС быстро развивается и находится на правильном пути.

***Rəyçi: Dos. Veysəlova Vüsalə***
***Ümimi tarix kafedrasının 03 mart 2021-ci il tarixli iclasının 04 saylı protokolu***
***Daxil olma tarixi 10 mart 2021-ci il***